# Durogloss 21050

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Knarr Durogloss 21050 iki komponentli, məsaməli səthlərə əla nüfuz edən, 3D effekt üçün istifadə edilən şəffaf epoksid örtük materialıdır.

### Tətbiq sahələri

Ofislər, hamamlar, mətbəxlər, salonlar, ticarət mərkəzləri və s. üçün dekorativ örtük məqsədləri ilə istifadə edilə bilər. Kimyəvi və mexaniki müqavimətə malikdir. İstifadə edilən səthə əlavə güc verir, çatlama, qabarma kimi halların qarşısını alır. Nəm tutmur.

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Şəffaf |
| **İncəltici** | İncəldilmir |
| **Qarışım nisbəti (kütləcə)** | Comp A - 5 /Comp B – 2.5 |
| **Potlife (20°C)** | 1 saat |
| **Toxunma quruma** | 1 saat |
| **Toz tutmama** | 12 saat |
| **Tam quruma(23°C)** | 24 saat |

### Qarışdırma

Komponentlər verilmiş nisbətlərdə dəqiq çəkilərək qarışdırılmalıdır. Əks halda tam sərtləşmə olmayacaq və məhsul lazım olan kimyəvi və mexaniki müqaviməti göstərə bilməyəcək. Tərkibləri homojen bir şəkildə qarışdana qədər qarışdırma davam etdirilməlidir. Yüksək gücdə qarışdırma əlavə köpüklənmə yarada bilər. Ətraf tempraturu məhsulun köpük atmasına təsir edir. 10°C-dən aşağı tempraturda istifadə tövsiyyə edilmir. Nəzərə almaq lazımdır ki, böyük miqdarda və / və ya yüksək temperaturda hazırlanan qarışıqların istifadə müddəti (potlife) qısalacaq.

### İstifadə üsulları

İş sahəsi və səth temperaturu 10°C – 30°C olmalıdır və örtük tətbiq edilməzdən əvvəl səthi pas, yağ, toz və oxşar çirklərdən təmizləmək lazımdır. Tətbiq olunan səthdə nəm olmamalıdır. Məhsual sərfiyatı 1kq ilə tək qatda 8-10m$^2$-dır (45±5 mikron quru film qalınlığı).

### Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (20$^o$C-də) 24 aydır.

### Qablaşdırılma şəkli

5 KQ-lıq A Komponenti və 2.5 KQ-lıq B Komponenti olaraq istehsal olunur.

### Tətbiq edən operator


**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

# Durogloss 21050

## Texniki Məlumat Səhifəsi

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com